QEYRİ-SPESİFİK VAGİNİTLİ QADINLARIN 30%-Lİ KARBAMİDLƏ MÜALİCƏSİNİN İFRAZATLARIN KLİNİK XÜSUSİYYƏTLƏRİNƏ TƏSİRİNİN MÜQAYİSƏLİ XARAKTERİSTİKASI

Bağırova P.N.*

Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu, Ginekologiya şöbəsi, Bakı, Azərbaycan

Qeyri-spesifik vagintilərin müalicəsində tərəfimizdən təklif edilən 30%-li karbamidlə müalicənin effektivliyinin öyrənilməsi üçün ifrazatların xarakteri, tezliyinin təyin edilməsi məqsədilə aparılan tədqiqat işinə vaginit diaqnozu qoyulan 120 xəstə daxil edilmişdir. Xəstələr aparılan müalicə tədbirlərinə əsasən iki qrupa ayrılmışlar: əsas qrupa 30% karbamidlə müalicə aparılan pasientlər (n=60), nəzarət qrupunda vaginitin standart ikinrhələli müalicəsi aparılan xəstələr (n=60) daxil edilmişdir. Bütün xəstələrdən ətarflı anamnez toplanmış, ginekoloji güzgülərlə baxış keçirilmişdir. Aparılan tədqiqatın nəticələrinədən məlum olur ki, 30%-li karbamid ilə aparılan ginekoloji sanasiyalar xəstələrdə ifrazatların aradan qaldırılması, xarakterinin yüngülləşməsinə daha effektiv şəkildə nail olunmuşdur.

Açar sözlər: qeyri-spesifik vaginit, müalicə, effektivlik, 30%-li karbamid.

Qeyri-spesifik vaginit stafilokoklar, streptokoklar, enterobakteriyalar, Escherichia coli və s. kimi müxtəlif qrup patogen mikroorqanizmləri, eləcə də onların birləşmələrinin törətdiyi uşaqlıq yolu selikli qişasının infeksion iltihabi xəstəliyidir [1].

Əsasən uşaqlıq yolundan böyük miqdarda ifrazat şikayəti ilə müraciət edən reproduktiv yaşlı qadınlar arasında 95% halda bakterial vaginoz diaqnozu təyin edilir [2].

Cinsiyyət orqanlarının yoluxucu prosesləri (vulvovaginit, servisit) olan xəstələrin müalicəsində effektiv terapiya metodunun seçilməsi böyük əhəmiyyət kəsb edir. Dərmanın fərdi seçimi xəstəliyin klinik gedişindən, klinik-laborator müayinələrin nəticələrindən, həmçinin dərman preparatlarının xüsusiyyətlərindən, istifadəsinə göstərişlər və əks göstərişlərdən, dərmanı əldə etmək imkanından və s. asılıdır və xəstəliyin müalicəsində böyük əhəmiyyət kəsb edir [3].

Vaginitin effektiv müalicəsinin həlli çətin məsələ olduğu danılmazdır. Vaginitin uğurlu müalicəsi diaqnozun düzgün və vaxtında qoyulması və patogenetik cəhətdən düzgün terapiyadan asılıdır. Antibakterial preparatlar urogenital infeksiyaların müalicəsi üçün əsas terapevtik vasitələrdir. Qeyri-spesifik vaginit polietioloji xəstəlik olduğu üçün hər bir halda fərdi olaraq antibakterial dərman təyin edilir [4].

Xəstələr xarici cinsiyyət orqanlarında qaşınma, göynəmə və ağrıdan şikayətlənirlər, gəzinti zamanı sidik ifrazı, böyük miqdarda ifrazat ilə ağırlaşır. Klinik simptomlar, şikayətlər xəstələrin 1/3-də kəskin mərhələdə qabarıq şəkildə müşahidə olunur [5].

Problem həm də bir çox xəstələrin özünüdiaqnoz və özünümüalicəyə meyilli olması ilə daha da ağırlaşır [6].

Bunları nəzərə alaraq tərəfimizdən qeyri-spesifik vaginitlərin müalicəsində yeni metodun təklif edilməsi istiqamətində məsələ aktualdır.

Karbamid (Urea, Carbamid, Carbamidum, Ureaphil, E927b) ilk dəfə 1828 ci ildə sintez olunub və o zamandan bu günə kimi tibbdə istifadə olunur. Karbamidin kiçik molekulyar kütləsi selikli qişanın dərin qatlarına keçməsinə imkan verir. Bununla yanaşı maye saxlama qabiliyyəti, digər preparatların tərkibində olan, biolojı aktiv maddələrin keçiricisi kimi istifadəsinə şərait yaradır [7].

Müəyyən olunan patogen mikrob ştamları 100% hallarda karbamidin 30% su məhluluna həssaslığa malik olduğu müəyyən edilmişdir.

Tədqiqatın məqsədi. Bunu nəzərə alaraq tərəfimizdən qeyri-spesifik vaginitlərin müalicəsində tərəfimizdən təklif edilən 30%-li karbamidlə müalicənin effektivliyinin öyrənilməsi üçün ifrazatların xarakteri, tezliyinin təyin edilməsi məqsədilə tədqiqat aparılmışdır.

Tədqiqatın material və metodları. Tədqiqatların hər birində 120 xəstə olmaqla 2 qrup qadınlarda aparılacaqdır. Xəstələr aparılan müalicə tədbirlərinə əsasən iki qrupa ayrılmışlar: əsas qrupa 30% karbamidlə müalicə aparılan pasientlər (n=60), nəzarət qrupunda vaginitin standart ikinrhələli müalicəsi aparılan xəstələr (n=60) daxil edilmişdir. Bütün xəstələrdən ətarflı anamnez toplanmış, ginekoloji güzgülərlə baxış keçirilmişdir. Laborator müayinələr üçün buraxılan və sərbəst şəkildə "kimyəvi reaktivlər" kimi satılan karbamid tozu bakterisid lampa

*e-mail: parvanabaghirov@gmail.com

altında 10 dəqiqə şüalandırıldıqdan sonra təmiz yuyulmuş şüşə qablara toplanır. Üzərinə qaynayan distillə edilmiş su əlavə edilir. Qapaqla sıx bağlanmış şüşə qablarda otaq temperaturunda saxlanılır. Məhlul 2-3 həftə saxlanıla bilir. Hazır məhlul ilə uşaqlıq yolunun sanasiyası aparılmış. Bir kurs müalicə 10 gün təyin edilmiş 1 ay fasilədən sonra təkrar edilmişdir.

Nəticələr və onların müzakirəsi. Vaginit zamanı aşkar edilən böyük miqdarda ifrazatlar çürümüş balıq qoxulu olur, ona sperma və ya sabunlu məhlulu düşdükdə daha da güclənir [8].

Bunları nəzərə alaraq, hər iki qrupda müalicədən əvvəl ifrazatın xarakterini tədqiq etdik (Cəd. 1).

Cədvəl 1

İfrazatın xarakteri üzrə kəmiyyət göstəriciləri (müalicədən əvvəl)

İfrazatın xarakteri	Əsas qrup (n=60)		Nəzarət qrupu (n=60)		p
	Müt. rəqəm	%	Müt. rəqəm	%	
Kəsmiyəbənzər	23	38,3	24	40	
Köpüklü	16	26,6	13	21,6	
Mayeli	9	15	11	18,3	
İrinli	12	20	16	26,6	<0,01

Qeyd: Statistik qeyri-dürüst.

Bu xəstələrdə ifrazatların xarakterinə görə kəsmiyəbənzər, köpüklü, mayeli və irinli olaraq təsnifləşdirdik (Cəd. 1). Hər iki qrupda müalicədən əvvəl kəsmiyəbənzər ifrazatın daha çox rastgəlmə tezliyinə malik olduğunu aşkar etdik: əsas qrupda 23 (38,3%), nəzarət qrupunda 24 (40%). Müalicədən əvvəl daha az rast gəlinən ifrazat hər iki qrupda mayeli ifrazat olmuşdur. İrinli və köpüklü ifrazatlar da üstünlük təşkil etmişdir. Köpüklü ifrazat əsas qrupda 26,6%, nəzarət qrupunda 21,6% aşkar edilmişdir. İrinli ifrazatlara da bu qruplar da təqribən eyni tezliklə, əsas qrupda 20%, nəzarət qrupunda 26,6% aşkar edilmişdir (Cəd. 2).

Cədvəl 2

Əsas qrupda müalicədən əvvəl, 3 və 6 ay sonra (n=60) ifrazatın xarakterinin kəmiyyət göstəricisi

İfrazatın xarakteri	Müalicədən əvvəl		Müalicədən 3 ay sonra		Müalicədən 6 ay sonra		P
	Müt. rəqəm	%	Müt. rəqəm	%	Müt. rəqəm	%	<0,05
Kəsmiyəbənzər	23	38,3	12	20	6	10	<0,05
Köpüklü	16	26,6	9	15	1	1,6	<0,05
Mayeli	9	15	8	13,3	4	6,6	<0,05
İrinli	12	20	7	23,3	0		<0,05

Qeyd: Statistik dürüst.

Əsas qrupda kəsmiyəbənzər ifrazat müalicədən əvvəl 23 (38,3%) xəstədə aşkar edilsə də, müalicədən 3 ay sonra 12 (20%), 6 ay sonra 6 (10%) xəstədə aşkar edilmişdir, irinli ifrazat müalicədən əvvəl müalicədən əvvəl 12 (20%) xəstədə, müalicədən 3 ay sonra 7 (23,2%) aşkar edilmiş, göstəricilər arasında fərqləq statistik dürüst fərqli olmuşdur ($p<0,05$). Müalicədən 6 sonra aparılan müayinə zamanı irinli ifrazatın əsas qrupda heç bir qadında olmadığı müəyyən edilmişdir. Beləliklə, 30%-li karbamid məhlulu ilə müalicədən sonra irinli ifrazat tamamilə aradan qaldırılmışdır. Müalicədən 6 ay sonra köpüklü ifrazat yalnzı 1 qadında müəyyən edilmişdir. Mayeli ifrazat isə müalicədən 9 (15%) qadında olduğu halda, müalicədən 6 ay sonra 4 (6,6%) qadında müəyyən edilmiş, göstəricilər arasında fərqləq statistik dürüst fərqli olmuşdur ($p<0,05$).

Eyni şəkildə ifrazatın xarakterini müalicədən əvvəl, müalicədən 3 və 6 ay sonra nzaərət qrupunda, yəni müalicə sxemi üzrə müalicə alan xəstərlərdə də tədqiq etdik (Cəd. 3).

Nəzarət qrupunda aparılan tədqiqatdan məlum olmuşdur ki, göstəricilər müalicədən əvvəl kəsmiyəbənzər ifrazat 24 (40%), köpüklü ifrazay 13 (21,6%), mayeli 11 (18,3%), irinli ifrazat 16 (26,6%) olmuşdur. Müalicədən 3 ay sonra kəsmiyəbənzər ifrazat 30% müalicədən 6 ay sonra 13,3%-ə qədər azalmışdır, fərq statistik dürüst fərqli olmuşdur. Lakin mayeli ifrazatın azalmasında 3 aydan sonrakı və 6 aydan sonrakı göstəricilər arasında fərq statistik qeyri-dürüst olmuşdur (Cəd. 4).

Cədvəl 3

Nəzarət qrupunda müalicədən əvvəl, 3 və 6 ay sonra (n=60) ifrazatın xarakterinin kəmiyyət göstəricisi

İfrazat	Nəzarət qrupu (n=60)					
	Müalicədən əvvəl		Müalicədən 3 ay sonra		Müalicədən 6 ay sonra	
	Müt. rəqəm	%	Müt. rəqəm	%	Müt. rəqəm	%
Kəsmiyəbənzər	24	40	18	30	8	13,3
Köpüklü	13	21,6	9	15	5	8,3
Mayeli	11	18,3	9	15	7	11,6
İrinli	16	26,6	9	15	8	13,3

Cədvəl 4

Müalicədən 6 ay sonra əsas və nəzarət qruplarında

İfrazatın xarakteri	Əsas qrup		Nəzarət qrupu		P
	Müt. rəqəm	%	Müt. rəqəm	%	
Kəsmiyəbənzər	6	10	8	13,3	<0,05
Köpüklü	1	1,6	5	8,3	<0,05
Mayeli	4	6,6	7	11,6	<0,05
İrinli	0	0	8	13,3	<0,05

Müalicədən 6 ay sonra karbamidlə müalicə alan xəstələr qrupunda kəsmiyəbənzər ifrzata 6 xəstədə qaldığı halda, nzıarıt qrupunda 8 nəfərdə qalmışdır. Köpüklü ifrazat isə yalnız 1 xəstədə (1,6%), nəzarət qrupunda 5 (8,3%) xəstədə qalmış, göstəricilər arasında fərqlər statistik dürüst olmuşdur. irinli ifrazat isə müalicədən 6 sonra karbamid ilə müalicə alınan heş bir xəstədə aşkar edilməmişdir. Nəzarət qrupunda da 8 nəfərdə qalmışdır.

Cəd. 4-dən göründüyü kimi müalicədən əvvəl kəsmiyəbənzər ifrazat 24 (40%) xəstədə aşkar edildiyi halda, müalicədən 3 ay sonra 18(30%), müalicədən 6 ay sonra 8 (18,8%) xəstədə bu növ ifrazat olmuşdur. İrinli ifrazat bu qrup xəatələrdə müalicədən əvvəl 16 (26,6%) xəstədə olduğu halda, müalicədən 3 ay sonra 9 (15%), 3 ay sonra 8 (13,3%) xəstədə qeydə alınmışdır. Köpüklü ifrazat olan xəstələrin də sayı müalicədən sonra kifayət qədər azalmışdır. Müalicədən əvvəl 13 (21,6%) olan bu xəstələrin sayı müalicədən sonra 3 ay ərzində 9 (15%), 6 aydan sonra 8 (13,3%) olmuşdur. Müalicənin 3 və 6 ayından sonra alınan göstəricilər arasıdan fərqlər statistik qeyri-dürüst olmuşdur.

Aparılan tədqiqatın nəticələrindən məlum olur ki, 30%-li karbamid ilə aparılan ginekoloji sanasiyalar xəstələrdə ifrazatların aradan qaldırılması, xarakterinin yüngülləşməsinə dafa effektiv şəkildə nail olunmuşdur.

Klinik simptomların və xəstələrdə şikayətlərin tezliyinin azalması ənənəvi müalicə sxeminə nisbətən daha effektiv olmuş, xəstəliyin ağır simptomlarını sürətlə aradan qaldırmaq mümkün olmuşdur.

ƏDƏBİYYAT – ЛИТЕРАТУРА – REFERENCES

1. Пестрикова Т.Ю., Воронова Ю.В. Оценка эффективности лечения вагинитов неспецифической этиологии // Гинекология, 2014, №2, с.13-17
2. Ван Нань Профилактика рецидивирующего бактериального вагиноза на основе восстановления колонизационной резистентности лактобактерий естественными физическими факторами: Автореферат дисс. … кандидата медицинских наук. Волгоград, 2017, 22с.
3. Назарова Н.М., Некрасова М.Е., Довлетханова Э.Р. и др. Вагиниты и цервициты: выбор эффективного метода терапии (обзор литературы) // МС. 2020. №3, с.17-23
4. 4.Заславский Д.В., Дойникова Е.Д., Рейнштейн М.И. и др. Современные аспекты лечения неспецифического вагинита у женщин на этапе прегравидарной подготовки // Современные проблемы науки и образования, 2018, № 1, с.1-8
5. Лысакова Н.В Неспецифический вагинит: современные принципы лечения // Вестник хирургии Казахстана, 2012. №4 (32), с.67-69
6. Кравченко Е.Н., Куклина Л.В., Охлопков В.А. и др. Современные подходы к диагностике и терапии вагинальных инфекций // Мать и дитя, 2017, №3, с.31-36
7. Шахтмейстер И.Я., Шимановский Н.А. Проблемы совершенствования фармакотерапии воспалительных и аллергических дерматозов с помощью наружных лекарственных средств глюкокортикоидной природы // Вестник дерматологии. 1998, №2, с.27-30
8. Клинические рекомендации по диагностике и лечению заболеваний, сопровождающихся патологическими выделениями из половых путей женщин. Издание 2-е, исправленное и дополненное). - Москва, 2019, 57 с.

РЕЗЮМЕ

СРАВНИТЕЛЬНАЯ ХАРАКТЕРИСТИКА ВЛИЯНИЯ ЛЕЧЕНИЯ 30% КАРБАМИДА НА КЛИНИЧЕСКИЕ ОСОБЕННОСТИ ВЫДЕЛЕНИЙ У ЖЕНЩИН С НЕСПЕЦИФИЧЕСКИМ ВАГИНИТОМ

Багирова П.Н.
Научно-Исследовательский Институт Акушерства и Гинекологии, отделение гинекологии, Баку, Азербайджан

120 пациенток с диагнозом вагинит были включены в исследование, проведенное с целью определения характера и частоты выделений, изучения эффективности, предложенного нами 30% раствора мочевины при лечении неспецифического вагинита. В зависимости от лечебных мероприятий больные были разделены на две группы: в основную группу вошли больные, получавшие 30% мочевину (n=60), в контрольную группу вошли больные, получавшие стандартное двухэтапное лечение вагинита (n=60). У всех пациенток был собран подробный анамнез, проведено обследование с гинекологическими зеркалами. Из результатов проведенных исследований известно, что гинекологические процедуры, проводимые 30% мочевиной, более эффективны в отношении устранения выделений и облегчения их характера.
Ключевые слова: неспецифический вагинит, лечение, эффективность, 30% карбамид.

SUMMARY

COMPARATIVE CHARACTERISTICS OF THE EFFECT OF TREATMENT WITH 30% CARBAMIDE ON THE CLINICAL FEATURES OF DISCHARGE IN WOMEN WITH NONSPECIFIC VAGINITIS

Bagirova P.N.
Clinical-Research Institute of Obstetrics and Gynecology, Department of Gynecology, Baku, Azerbaijan

120 patients diagnosed with vaginitis were included in a study conducted to determine the nature and frequency of discharge in order to study the effectiveness of the treatment proposed by us with 30% carbamide in the treatment of nonspecific vaginitis. Depending on the treatment measures, the patients were divided into two groups: the main group included patients who received 30% carbamide (n=60), the control group included patients who received standard two-stage vaginitis treatment (n=60). A detailed history was collected from all patients, and an examination with gynecological mirrors was carried out. From the results of conducted studies, it is known that gynecological procedures performed with 30% carbamide are more effective in eliminating discharge and easing their character.
Keywords: nonspecific vaginitis, treatment, effectiveness, 30% carbamide.

Redaksiyaya daxil olub: 29.03.2023
Çapa tövsiyə olunub: 22.04.2023
Rəyçi: t.ü.e.d. P.M.Əliyeva